**Fərdi məlumatlarımın toplanması və işlənməsi ilə bağlı müddəalar və şərtlər**

Bununla təsdiq edirəm ki, “Meqa Sığorta” ASC-nin Məxfilik siyasəti ilə tanış olmuşam və razılıq verirəm ki, şəxsi məlumatlarımın qanunvericiliklə nəzərədə tutulmuş qaydada eyniləşdirilməsi və verifikasiya olunması, eyni zamanda “Meqa Sığorta” ASC-yə verilmiş lisenziya əsasında icazə verilən sığorta fəaliyyəti növü üzrə əməliyyatların icrası zamanı xidmət keyfiyyətinin və müştəri məmnuniyyətinin artırılması, yeni sığorta məhsullarının təklif edilməsi, o cümlədən sığorta xidmətlərinin daha çevik və operativ təqdim edilməsi məqsədi ilə mənə məxsus şəxsiyyət vəsiqəsi, ümumvətəndaş pasportu, əmək və maliyyə, nəqliyyat və daşınmaz əmlak məlumatlarım Elektron Hökumət İnformasiya Sistemi üzərindən “Meqa Sığorta” ASC tərəfindən toplanıla və işlənilə bilər.

Bu razılıq “Meqa Sığorta” ASC-nin xidmətlərindan istifadə etdiyiniz müddətdə qüvvədədir və fərdi məlumatlar “Meqa Sığorta” ASC-nin müvafiq informasiya sistemində qanunvericilik və daxili qaydalarla müəyyən edilmiş müddət ərzində saxlanılır, arxivləşdirilir və məhv edilir.

Siz “Meqa Sığorta” ASC-nin Müştəri Xidmətləri İdarəsinə yaxınlaşaraq bu razılığı geri götürə bilərsiniz.